Milyon çıraqlı o göz
Şəfəqlədib yolunu.
Tufanlardan keçirmiş
Qanadını, qolunu.

Milyon çıraqlı o göz
Yerə, suya səpir nur,
Ulduzlara göz vurur.
O qocaman qartalı
Uca, nurlu göylərə,
Bir uğurlu səfərə
Uçurduqca uçurur...

MƏSLƏKİM YOLUNDA

Məsləkim yolunda gəlsəm üz-üzə
Məndən əfv ummasın doğma qardaşım.
Hər yerdə, həmişə haqq gəzə-gəzə
Ağ gün yollarında ağardı başım.

Təzə arzuluyam, qocaltmaz zaman
Yüzə yetişsəm də bu minval ilə.
Güclüyəm – millətim ümmandır, ümman
Artır, həmrəy olur o, ildən ilə.

Mən də o ümmanın bir qətrəsiyəm,
Bir gün buxarlanıb qalxsam göylərə,
Yenə damla olub düşəndə yerə
Bir əməl çiçəyi bitirəsiyəm,
Xalqıma töhfətək yetirəsiyəm.

Təbiətin qız vaxtıdır

GƏLMİŞƏM

Səndən ayrılanda, dağlar, cavandım,
İndi görüşünə qoca gəlmişəm.
Qayğılar üstümə düşdü – talandım,
Üzümə üz tutub borca gəlmişəm.

Diləyim çoxsa da, gəl əsirgəmə,
Nə arzu eləsəm, yoxumdur demə.
Qaytar sən bu dəmdən məni o dəmə,
Düşmüşəm yamanca suça, gəlmişəm.

Mehribandır obaların, ellərin,
Şəfalıdır çiçəklərin, güllərin,
Məlhəm olsun deyə sərin yellərin
Sinəmi mən açа-açа gəlmişəm.

Xatirəmin güllərini üzməyə,
Cığır örtən otlarını əzməyə,
Haraylayıb gəncliyimi gəzməyə,
Yollarını quca-quca gəlmişəm.

Zəri altı duran bəxtə-naxışa,
Möhkəmcə yaddaşa, möhkəmcə huşa,
Cağbacağ dişlərə – üyüdən daşa,
Yapdığım küt gedir, saca gəlmişəm.

Baxışda tüğyana gələn dənizə,
Qırışsız alına, gözlüksüz gözə,
Çəliksiz əllərə, əsməyən dizə,
Bükülməyən qola-qıça gəlmişəm.

Yanaqda közərən laləyə, gülə,
İlanı yuvadan çıxaran dilə,
Dayı dedirtməyən qapqara telə,
Hələ dən düşməyən saça gəlmişəm.

Damaqdan getməyən dada-ləzzətə,
Qızlar bəyəndiyi boya-qamətə,
İti, şux yerişə, taba-taqətə
Möhtac qalıb uça-uça gəlmişəm.

Tövşümək bilməyən odlu nəfəsə...
Durnanı havada saxlayan səsə,
Tükənməz nəşəyə, bitməz həvəsə,
Hünərə, qüdrətə, taca gəlmişəm.

Ömrün zinətini illər alıbdır,
Mahir ovçu kimi bir-bir çalıbdır.
Birco son verdiyin vüqar qalıbdır,
Hüzuruna başı uca gəlmişəm!

LAÇIN QAYASI

Qabarıq sinəli Laçın qayası,
Nə qorxunc, heybətli görünüşün var!
Əlçatmaz qoynunda kəklik yuvası,
Üstündə qıy vuran laçınlar uçar.

Arxan Alaqaya, Məndilin dağı,
Yanında Ağbaba dayanıb qoşa.
Buluddan çalmalı Murov yaylağı
Qarşında Kəpəzlə verib baş-başa.

Daşların altından "pıq-pıq" eyləyən
Bulağın timsaldır qaynar gözlərə.
Dərələr uzanır "gəl-gəl" söyləyən,
Ləpəsi sıçrayan dəli Tərtərə.

Yuyar daşlarını məkansız sular,
Öpər yanağını səhərin yeli.
Hər çiçək fəslində gələndə bahar
Axar göy sinənə var-dövlət seli.

Ferma çadırları qurulan zaman
Başlanar dağların toyu, büsatı.
Sürünü yaylıma çıxaran çoban
Şiş qaya üstündən çəkər bayatı.

İnsan nəfəsilə canlanar yenə,
Nə gözəl görünər camalın sənin.
Dost qəlblər dözərmi odlu hicrinə,
Ömür təzələyər vüsalın sənin.

Çəmənlər içində – yanında evin
İməkləyən körpə toplayar çiçək.
Səhərlər meşəyə gedən qız, gəlin
Qayıdar qabında moruq, çiyələk.

Yüz tüfəng tuşlansa süzən qartala,
Duyğusuz ovçunun qaşı çatılmaz.
Qocalar qəzəblə qışqırar: "Bala,
Laçına, qartala güllə atılmaz!.."

Qabarıq sinəli, Laçın qayası,
Nə qorxunc, uçurum görünüşün var!
Əlçatmaz qoynunda kəklik yuvası,
Üstündə qıy vuran laçınlar uçar.

Lalələ, nərgizli zümrüd sinəni
Palıd meşələri dövrəyə almış.
Çox yola salmısan gəlib keçəni,
Zamanın zərbindən başın ağarmış.

Palıd ağacından qopan səs, hənir...
Laçınlı, buludlu, qalalı dağlar...
Bu möhtəşəm lövhə bilsən nə deyir:
"Burda babaların ocaq yeri var..."

İgid nəslimizin əzəmətidir
Məğrur görünüşü bu gözəl dağın.
Yenilməz vüqarı, şan-şöhrətidir
Dünənli, bugünlü qəhrəmanlığın.

BƏRƏDƏ

Çatdıq qalın meşəyə, aşıb neçə yol, gədik,
Hər ağaca burada inci düzmüş sırsıra.
İşarəylə dayanır, işarəylə gedirik
Ayaq altda çör-çöpü biz sındıra-sındıra.

Ovçu Murad yanaşıb pıçıldayır: "Yavaşın,
Tövşümək də yaramaz – qulağı var dağ-daşın.
Usdub-usdub yeriyin, tələsməkdən nə fayda.
Vardır qədim zamandan ovçuluqda bu qayda:
Yaramaz, heç yaramaz səbirsizlik, qovhaqov,
Tələsənin, qaçanın ürcahına çıxmaz ov.
Lap vaxtında gəlmişik, səbr eləyin bir qədər,
Ovun gürrah yurdudur, məkanıdır bu yerlər.
Ay uşaqlar, elə bil, tüfəngimdən qan damır..."

Onun iti gözləri dörd bir yanı dolanır.
Çırtıq vurur qəlbində, üzdə susur o, lakin:
"Ov həssasdır, iy duyar papiros da çəkməyin,
Var-gəl etmək də olmaz qış gününün sazağı
Doğrasa da, kəssə də burda əli-ayağı..."

O, münasib yer seçir bir daldada hərəyə –
Sürək başlanan zaman ov gələcək bərəyə.
Dayanmışıq müntəzir on beş addım aralı,
Gözləyirik əliyi, gözləyirik maralı...
Bir atəşlə sürəyə veriləndə işarə,
"Hey! Hey!!!" səsi yayılır, guruldayır dağ-dərə.
İrəliyə tuşlanan zağlı qoşa lülələr –
Barmaq dəysə tətiyə şaqqıldayıb gülərlər...

Mən elə bir bərədə əldə silah durmuşam –
Gəlib keçsə neçəsi vurmuşam ki, vurmuşam...
Bircə anlıq zövq üçün həvəsə bax, həvəsə!!
Qabaqcadan özümü gör bir necə öyürəm.
Açmasam da qəlbimi yoldaşlardan bir kəsə,
Pıçıldayıb yavaşca öz-özümə deyirəm:
"...Girəveni ötürsəm dostlar qaxar başıma,
Bircə ov da çıxmaya, kaş ki, mənim qarşıma..."

QIRQOVULUN QİYMƏTİ

Taqətdən düşmədi ovçu qədəmi –
Bir gənc düzü keçdi, təpəni aşdı.
Tüfəngi ayaqda, axşama kimi
Meşəni, kol-kosu gəzib dolaşdı.

Nə düzdə ceyran var, nə daşda kəklik,
Nə bir dovşan izi suata gəlmiş.
Bu yaşıl pöhrəlik, bu göy çəməlik
Ovsuz yoxsul imiş, bəzəksiz imiş.

Bir vaxt qoşa-qoşa süzən turacdan,
Əlvan qırqovuldan əsər görmədi,
Əlacı hər yerdən üzülən zaman:
"Qoruqçunu yola gətirrəm..." dedi.

O, qoltuq cibinə çırpdı əlini,
Çırtıq vura-vura yola düzəldi,
Gözünün üstünə tökdü telini.
Ərköyün-ərköyün qoruğa gəldi.

Quşlar qəfil uçdu hər addımbaşı,
Ürək pırıltıdan oldu qopası.
Fikrinə gətirdi bir qazan aşı,
Üstündə qırqovul, turac çolpası.

Qarğa şaqqıldadı, kollar titrədi.
Oğlan yaman düşdü ov həvəsinə.
Havaya bir patron boşaldıb dedi:
"Qoy gəlsin qoruqçu güllə səsinə..."

"...Heç vaxt ayağını burda oyləməz,
Çiynindən çıxarmaz tüfəngi ovçu..."
Gəlib qaça-qaça, dinməz-söyləməz
Seyr etdi o gənci qoca qoruqçu.

Bu baxış deyirdi: "ayıbdır, bala,
Bir özgə əyləncə tapsana kefə".
Oğlansa işarə eylədi pula:
– Əliboş de, necə qayıdım evə?!

Beş onluq verərəm beş qırqovula...
– Onu qatığa ver...
– Təhqirmi?! Məni?!
– Bəs necə?! Dəyişmək olarmı pula
Vətən torpağının gözəlliyini?!

MARALIN ÖZ YOLU VAR

Zirvələrə aparır
Məslək bizi, yol bizi.
Yollar düşcək silinir
Kənd-kəsəkdən qəm izi.

Uğurlu yol, dürüst yol
Hər qismətin başıdır,

Yol da var ki, olmasa,
Çəkilməsə yaxşıdır.
Cüyürün öz çəhlimi,
Maralın öz yolu var,

Gedişi-gəlişi çoxalsa
Gözə gələr, azalar.

Yatağına, yurduna
Onların qor tökməyin,
Namərdliyin daşını
Birdəfəlik atmayan,
Gecə-gündüz evində
Havalanıb yatmayan
Ovçuya yol çəkməyin.

O ətrafda təmizdir,
Ətirlidir çəmənlər.
Maşın çiçək şehinə
Benzin çilər, toz ələr.!

Buxarlanıb yox olar
Quzeylərin ağ qarı,
Yayda daha görünməz
Bənövşənin nübarı.

Örüşləri, döşləri
Çalın-çarpaz əkməyin,
Süd gölünü qurudub
Yerinə qır tökməyin,
Buraya yol çəkməyin.

Göbələk qucaq-qucaq,
Kimin könlünə düşsə
Özü payı-piyada
Gəlib onu tapacaq.

Həyalı bulaqların
Üstünə yol çəkməyin –
Barı bura dəyməsin
Nəməhrəmlər ayağı.
Çeşməmizin gözünə

Tökməsinlər arağı.
Sərxoşların xorunda
Zümzümələr itməsin.
Kabab çəkilən yerə
Konservlər getməsin.

Dağlara yol çəkməyin,
Bu torpağın sirrini
Aralığa tökməyin,
Babaların bürcünü,
Səngərini sökməyin.

Min fikirli, xəyallı,
O kəklikli, maralı
Dağlara yol çəkməyin –
Yollara dağ çəkməyin...

ÜRƏYƏ AÇILAN ATƏŞ

O qansız əlini yuyanda qanla
İlk gecə sübhədək keçirdi əzab.
Qulağı dolduqca ahla-amanla
Vermədi vicdana bir də haqq-hesab.

Bir cavan beləcə uyub tamaha
Duyunca havadan təzə ət iyi,
Saymazca əl atdı dolu silaha,
İlk dəfə nəşəylə çəkdi tətiyi.

Düşdü tappıltıyla önünə turac,
Bir anda min büsat tari-mar oldu.
Peşiman-peşiman baxdı naəlac,
Günahsız qan gördü, halı pozuldu.

Düşündü: "yuvama tale su calar,
Neylədim?.."

Özünü söydü, qınadı.
Gülüşdü bu hala köhnə ovçular.
Azaltdı dərdini kababın dadı.

Ötürdü bərədən keçən qabanı –
Əti bu yerlərdə haramdır deyə,
Ələdi, aradı, gəzdi ormanı,
Qoşa patronları sıxdı əliyə.

Bir belə, beş belə... Etdikcə şikar
Öyrəşdi naləyə, öyrəşdi qana.
Tətiyi çəkdikcə nəcib duyğular
Tutuldu köksündə gülləborana.

Mərdi qova-qova namərd eylədi,
Dinclik də vermədi uçar-qaçara.
Ananı, balanı vurub teylədi –
Dağ çəkdi payıza, qışa, bahara.

Qırma çiskinindən sərilcək yerə
Qanovuz qırqovul, xınalı kəklik,
Yaralı-yaralı uçdu göylərə,
Perikdi qəlbindən neçə gözəllik.

Oldu mərhəmət də, insaf da şan-şan,
Döndü çopur daşa o həssas ürək...
Maralı, ceyranı alanda nişan
Özünü hədəfdə görəsən gərək!

BULAQLAR

Haray salıb sərasər
Qaynayar axşam-səhər.
Nəğməsində qəm-kədər
Gedənləri soraqlar
O vəfalı bulaqlar.

"Yeddi bulaq", "Yüz bulaq",
"Soyuq bulaq", "Buz bulaq",
Təzə-təzə ad qoyaq,
Adı əbədi saxlar
İlqarı düz bulaqlar.

Biri: "Nəbi çeşməsi",
Biri olsun qoy: "Həzi".
Biri: "Cəmil kəhrizi" –
Pıçıldasın dodaqlar
Fəxr etsin bulaqlar...

Gəlib çıxa kaş qəfil
Qafur, Mehdi, İsrafil.
Şəlalə vura təbil,
Layla çala bulaqlar,
Fikrə dala uzaqlar...

Hər dağımda bir qala,
Heykəllər də ucala.
Əksi sularda qala,
Ulduz taxa bulaqlar,
Məğrur axa bulaqlar.

Zümzüməniz mənalı
Əbədiyyət timsallı
Gəzin eli-mahalı,
Mahnı olun, bulaqlar,
Qəlbə dolun, bulaqlar...

DAĞLAR BURAXMIR MƏNİ

Oyandım ki, qar tutub
Yurda yaxın zirvəni.
Üzü arana sarı
Yatan gördüm dəvəni.

Qara qoyun, qara kəl
Dümağ olub qırovdan,
Bir gecənin içində
Baş qaldırıb elqovan.

Vədə bitib, vaxt çatıb –
Yola düşəsən gərək,
Çəmən, bulaq seyrinə
Daha ara verərək.

Yır-yığışa başladım,
Hazırlaşdım könülsüz,
Sözlü-dərdli dayandım
Dostum dağla üzbəüz.

Halallaşmaq məqamı
Dillənməyə hanı tab?
Göz yaşıtək qofildən
Yağış tökdü tappatap.

Lay-lay olub döşədi
Qarşı yalı, çəməni,
Demək açıq-aşikar
Dağlar buraxmır məni.

Yapıncıya büründüm,
Dəhmərlədim atımı,
Ayrılanda obadan
Yavaşıdı addımı.

Çıxdım hamar, düz yola,
Keçdim o sərt enişi,
Bos havalı köhlənin
Hanı yorğa yerişi?!

Cilovunu tərpətdim,
Xışmaladım yalını,

Yollar ahənrübaymış –
Tutub çəkdi nalını.

Yağış ötdü. Bir anda
Duman kəsdi bərəni;
Bildim bunlar tələdir –
Dağlar buraxmır məni.

Qalxdım çənlə-çisəklə,
"Yelligədiyi" aşdım.
"Səbətkeçməz" keçidə
İltimasla yanaşdım.

Dilə tutdum naəlac
Qurd ağızlı dərəni.
Yol versə də... duydum ki,
Dağlar buraxmır məni.

Ormanlığa çatmışam,
Nə gedən var, nə gələn.
Aşıb qoca bir palıd
Kəsmiş yolu köndələn.

Asta-asta adladım
Bu sehirli meşəni.
Durub əliağaclı
Dağlar buraxmır məni.

Vidalaşıb gəldiyim
Eniş-yoxuş, o duman,
Darvazatək açılıb,
Darvazatək bağlanan
Dar keçidlər, dərələr
Sanki qaçıb irəli
Qabağımı kəsirdi.
Düşən zaman rast yola,
"Gedirsən, get..." söyləyib
Dağlar məndən küsürdü.

Gözlərimlə dərərək
Hər çiçəyi, hər gülü,
Yeyinlədim bir qədər
Mən də ərklə, küsülü.

Az getməmiş devikdim,
Azmışdımmı mən yolu?!
Yox, möhtəşəm qayalar
Uçub tutmuş gen yolu.

Baxıb bu "çin səddinə",
Öz-özümə dedim mən:
Buyur, indi keç görüm,
Burdan necə keçirsən...

Bir qəribə həvəslə
Köhlənimdən tez endim,
Təbiətin fəndinə
Uşaq kimi sevindim.

Süzdüm çılğın fərəhlə
Bu keçilməz guşəni:
Öyünməyim, neyləyim –
Dağlar buraxmır məni.

– Yol tapmayıb, – dedim, – kaş
Burda əsir qalaydım,
Burda açıb solaydım,
Bir yol açıb solmuşam,
Bir də açıb solaydım...

ASAN YOLLAR, ÇƏTİN YOLLAR

Bombozuna acıyıram torpağın, daşın,
Ruh oxşayan nə bir lövhə, nə axar-baxar.
Gözişləməz düzənlikdə şütüyür maşın,
Bu yerlərin nə yarğanı, nə də arxı var.

Yoxdur qəza vahiməsi, yollar salamat.
Bir sərnişin öz yerində olmaz narahat
Saatlarla mürgüləsə, yatsa sürücü,
Fəqət səbrin bu yollarda sınanar gücü!

Hər yan karton üzü kimi bomboz, fərəhsiz,
Baxışlarda qalmayıbdır həvəsdən bir iz.
Yol qorxusuz, səhra sonsuz... lap bezir insan.
Təhlükəli dağ yoluna yetişən zaman
Dörd tərəfə min maraqla göz dikir hamı,
Gah dərəyə enir maşın, gah çıxır döşə.
Süzüb keçən "Volqa"mızı bu yay axşamı
Gah qoynunda atıb tutur, gah udur meşə.

Addımbaşı çəmənliklər, çaylar, çeşmələr,
Seyrangahlar "əylən" – deyir bizə hər anda.
Döngələrdə təbiəti seyr etsən əgər
Uçurumlar udar səni göz qırpımında.

Gözlərimiz hər lövhədən gül üz-üzə
Qovur, qovur qəlbimizdən bu duyğuları.
Unutdurur vahiməni gözəllik bizə,
Uça-uça adlayırıq uçurumları.
Bu qorxulu, qəşəng yolda qərar verdim mən:
Hər məqamda can hayına qalan naşıdır.
Asan yolla gün keçirib ömür sürməkdən
Çətin yollar qucağında ölmək yaxşıdır!

BİR ŞƏLALƏ VAR İDİ

Oğlum Xanəmirə

Bir şəlalə var idi
Gəncliyimin sirdaşı.
Dayaq idi mənə də
Söykəndiyi hər daşı.

Sübh şəfəqi içində
Tel-tel olub yanardı.
Dinləyənlər səsini
Bir orkestr sanardı.

Yaxınların cəngisi,
Uzaqların sazıydı.
Təbiətin hörüklü,
Şad-şalayın qızıydı.

Qırmaclardı saçıyla
Kimi alsa qoynuna.
Qucağında titrərdik
Biz yuyuna-yuyuna.

Biz gedəndə səslərdi
Kimlərisə: – tez gəlin!
Pərdə tutub gizlicə
Soyunardı qız-gəlin.

Qayaların dalından
Həris gözlər baxardı,
O üşüdən şəlalə
Yandırardı, yaxardı;
Gənclik kimi çağlayar,
Ömür kimi axardı...

Ayrıldım o büsatdan,
Calandı illər ilə.
Dərələrin dilbəri
O füsunkar şəlalə
Hara getdim qəlbimdə,
Qulağımda çağladı,
Sözlü-səsli dağlara
Məni vurğun saxladı.

Xəyalımda yaşardı,
Xəyalımda coşardı,

Xəyalımda buzlaşar,
Xəyalımda daşardı.
Xəyalımda?!
Yox, bu gün
Gəldik oğlumla birgə
Onu ziyarət üçün.

Hər şey eləcə durur,
Həmin nəşə, həmin dərd,
Otlar elə yumuşaq,
Qayalar da elə sərt.

Baxın, baxın siz hələ,
Görün necə dəyişməz
Qalıb bu şən şəlalə.

Dərələrin yenə də
Cəngisidir, sazıdır.
Təbiətin rəqs edən,
Həmin saçlı qızıdır.
Oğlum – dəcəl gəncliyim
Tez-tələsik soyundu,
Onun soyuq qoynunda
Ürkə-ürkə yuyundu.

Yaxınlaşıb təşvişlə
Nəzər saldım hər yerə.
Məndən heç bir sirrini
Gizlətməzdi dağ-dərə.

Şəlalənin dayağı
Qayalara baxanda
Ürəyimi vahimə,
Dəhşət aldı bir anda;

Yağış-yağmur bükmüşdü
Şəlaləni saxlayan

Qayaların dizini.
Geri çəkdim oğlumu,
Kəsib onun nagahan
Sualını, sözünü.
Bircə təkan gərəkdi
Sarp qayalar sökülə,
Çimənlərin üstünə
Nəhəng daşlar tökülə.

Bircə təkan gərəkdi
Yas bürüyə obanı;
Qılınc daşlar, qanına
Qəltan edə çobanı.

Bircə təkan gərəkdi
Toxundurcaq əlini
"Ayıqaya" altına
Ala üryan gəlini...
Belə qalsa kiminsə
Bəxti qəfil sönəcək,
Bu qurulu gözəllik
Fəlakətə dönəcək.

Odlu şimşək beynimdən
Ürəyimə şığıdı.
Qulağıma yetişdi
Bir cavanın fəryadı.
O heybətli qayaya
Girvənkəlik daş vurdum –
Gəncliyimin xatirə
Büsatını uçurdum.

Son nəfəsdə şəlalə
Qıjhaqıjla çağladı,
Elə bil ki, təbiət
Öz halına ağladı.

Hıçqırığı kəsincə
Huşsuz düşdü o dilbər.
Dərə boyu sərildi
Yerə gümüş hörüklər.
Yox, qızıl ilan idi,
Xilas oldu bir insan.
Bir gözəllik azaldı
Vətənimin qoynundan...

Dərə sükut içində,
Ürəyim ağlar idi.
Bu yerlərdə füsunkar
Bir şəlalə var idi...

GÖY GÖL MƏNZƏRƏLƏRİ

1. GECƏ

Bu gecənin möhtəşəm, sirli bir aləmi var,
Aşağıya baxıram, seyr edirəm səmanı.
Ayağımın altında tala-tala buludlar,
Gah görünür, gah itir ulduzların karvanı.

Gümüş pullu balıqmı, Aymıdır o çırpınan
Ayağımın altında.
Göydə deyil, bu gecə qatarlanıb kəhkəşan
Yerin yeddi qatında –

Elə bil ki, heyrətlə milyon-milyon göz baxır.
Kəpəz sönmüş mayaktək görünsə də dərədə
O əzəmət, o vüqar silinməz iz buraxır,
Könlüm doymur, gözlərim qalır o mənzərədə.

Zənn etməyin o gecə kainatı dolaşan
Əfsanəvi bir quşdum,
Yox, aynalı Göy gölün asimanla qovuşan
Sahilində durmuşdum.

2. PAPİROS KÖTÜYÜ

Üstümüzə muncuqtək damcı-damcı su düşür,
Qayıq süzür, al-əlvan mənzərələr dəyişir.
Yelpik-yelpik açılıb qanadlanır ləpələr,
Sökür yaşıl çadrını göldə quran təpələr.
Göl *necə də dupduru, göl necə də təmizdir,*
Ona məhəbbətimiz coşub-daşan dənizdir.
Əyləşibdir qayıqda bir təbiət vurğunu.
Barmağıyla söndürdü papirosun odunu.
Baxdı əzik kötüyə, bir də ki, şəffaf suya.
Əhsən onun qəlbini bürüyən saf duyğuya! –
Papirosu atmadı gölün təmiz üzünə,
O, *qıymadı* Göy gölün təravətli hüsnünə.

3. GÖZƏLLİYİN TARİXİ

Göy göldən nə qədər yazırsansa yaz,
Azalmır hüsnündən əzəmət, vüqar.
Onu gülən qıza bənzətmək olmaz
Məskəni olsa da zövqü-səfanın:
Səkkiz yüz yaşında bu növcavanın
Mənalı pərişan gözəlliyi var.
Başının üstündə dayanır Kəpəz
Uçan bir qalanın divarı kimi.
Ana təbiəti seyr eləyib göz
Ömrün keçilməmiş yolları kimi.
Meşələr sirr dolu, meşələr qalın,
Sehri var hər rəngin, burda hər səsin.
Gəzək bu yerləri biz ayaqyalın,
Xəzəl inciməsin, daş inciməsin...
Deyirlər, bir kol da yoxmuş bu yerdə,
Yaşıl yamaclarda, göy təpələrdə
Yayda söykənərmiş oba obaya,
Cavanlar qol-boyun enərmiş çaya,
Dağlar əks edərmiş, sazı, qavalı,
İgidlər nəşəli... Ağsu havalı...
Bir gecə lərzəyə gəlmiş təbiət,

Qov kimi titrəmiş dağlar, təpələr.
İtkin düşmüş burda neçə söz, niyyət.
Qarışmış torpağa neçə kənd, şəhər.
Sürünmüş yarğanlar hey dizin-dizin,
Yerin şah damarı bir-bir sökülmüş.
Yarılmış dəhşətdən bağrı Kəpəzin,
Qopub tikə-tikə, çaya tökülmüş...
Fəlakət üz vermiş Azərbaycana.
Sübhədək ağrılar çəkən o ana
Səhər ala gözlü bir bala doğmuş,
Hüsnü, yaraşığı heç yanda yoxmuş.
O, xeyli çalxanıb uyuyan zaman
Gəlmiş tamaşaya yer, göy, asiman,
Gəlmiş tamaşaya Gəncə, Qarabağ,
Bakıya, Təbrizə getmiş bu soraq.
Gözəllik eşqinə sarılmış o gün
Şairlər qələmə, ozanlar saza.
Hüsnü əbədilik solmamaq üçün
"Göy göl" adı vermiş ellər bu qıza.
Hər baxan qəlbində söyləmiş "bəh-bəh!.."
Kədərdən, şadlıqdan gözləri dolmuş.
Zəlzələ – fəlakət, gözəllik – fərəh:
O gün çox ağlayan, sevinən olmuş.
Bədbəxtlik, xoşbəxtlik gəlmiş ölkəyə
O vaxtdan çox illər, əsrlər ötmüş.
Vətən dərdlərini unutsun deyə
Yaralı torpağı meşələr örtmüş.
Meşələr sirr dolu, meşələr qalın
Sehri var hər rəngin, burda hər səsin.
Gəzək bu yerləri biz ayaqyalın,
Xəzəl inciməsin, daş inciməsin.

4. QINAMASIN GƏLƏCƏK NƏSİLLƏR BİZİ

Deyirlər ki, çəkilir suyu Göy gölün,
Sahil boyu daşlara ağ-ağ iz salıb.
Saçlarını ağ hörür nə tez bu gəlin?!
Belə getsə, ömrünə neçə il qalıb.

Belə getsə, töküler dağların zəri.
Görə-görə dözürük o fəlakətə.
Yaranarmı bir daha onun bənzəri,
Yüz sifariş versən də sən təbiətə!
Min həvəslə bəzənib əlvan geyinməz,
Bir gözəlin sınanda tale güzgüsü.
Meşə solar, dumana bürünər Kəpəz,
Təbiətlə əbədi bağlayar küsü.
O, göz yaşı deyil ki, quruyan zaman
Qanadlanaq fərəhdən, sevinib gülək.
Dadımıza yetməz də nə ah, nə aman –
Başbilənlər yığışsın bu dərdi bilək.
Başbilənlər yığışıb gəlsin haraya,
Gözəllik oğrusunun tapılsın izi.
Yana-yana bir zaman baxıb buraya
Qınamasın gələcək nəsillər bizi!
İndən belə qətrə də suyu itməsin
Qoy əbədi yaşasın səfalı Göy göl.
Üstündəki sonatək uçub getməsin.
Qalsın ana torpağa vəfalı Göy göl.

DUYĞULU BAHAR

Şirin uğultular qalxdı dərədən,
Bir ney nəvasıtək yayıldı döşə,
Otuxan quzular çıxdı mərəkdən,
Atıla-atıla qaçdı örüşə.

Gəzməyə getdilər qavalla-sazla,
Nilufər, Qərənfil, Lalə, Yasəmən,
Sinəsi cəh-cəhli oğlanla, qızla –
Çiçək-insan ilə bəzəndi çəmən.

Qurdu məclisini sevgi hər yanda,
Bayram libaslıdır çöl-bayır bu gün.
Qızılgül üstəki sarı tikan da
Bülbül dimdiyinə oxşayır bu gün.

Dağıtdı çiyninə qızlar saçını,
Bənövşə otriylə doldu küçələr.
Yeddi dost boyondi yeddi bacını,
Bir iclaslıq oldu gələn elçilər.

Birinin iş-gücə "qarışdı başı" –
Vaxt-vədə borcutək gəlib haqladı.
Kəsdiyi meynələr tökdü göz yaşı –
Tənbəlin halına yanıb ağladı.

Bağın bir tərəfi ağdı sərasər –
Elə bil qış ilə gizli görüşdü,
"– Bu vədə nə çiçək?! Qardı!" – dedilər,
Badam ağacları böhtana düşdü.

Dağın yaraşığı, gücü, qüruru
Şəlalə dardadır büllur igidtək.
Yazın buz baltası, günəşin nuru
Onu əsarətdən xilas edəcək.

Vurnuxub dolaşdı bir parça duman,
Gah dağın, gah bağın üstünü aldı,
Göydənmi, yerdənmi çıxdı nagahan,
Ünvansız məktubtək havada qaldı.

Bir qarış qalxıbdır Muğanda zəmi,
Muravun zirvəsi, qaşı hələ qar.
Vaxt niyə gec gəlir, durub üzəmi –
Aran arzuludur, yaylaq intizar.

Torpaq qabar-qabar, gül puçur-puçur,
Ürəkdə arzu da göyərir bələ.
Xəyal raketlərə qoşulub uçur,
Yol alır ən sirli, uzaq mənzilə.

Xəyal uçur, mən də uçuram demək,
Sonsuzluq içində vardır həyanım –
Talc zirvəsində yanır ulduztək
Baharlı, duyğulu Azərbaycanım!

BİR MEYNƏ VARDI

Məhlə yaraşığı bir meynə vardı,
Yaşıl çətir idi neçə cyvana.
Ötənlər dönərdi, ayaq saxlardı,
Əhsən söyləyərdi baxışlar ona.
Firavan vurmuşdu başa illəri,
Qayğısız saçları tökülü idi.
Təzə kəsilmişdi bu yaz telləri,
Hələ yarpaqları bükülü idi.
İnana bilmədim bu gün gözümə –
Meynəni kökündən üzülü gördüm.
Kim qıyıb?! – vaysındım özüm-özümə,
Sualı cavabla... küsülü gördüm.

BAHARIN MƏKTUBU

Köksünü üfüqə söykəyən bahar
Əlinə gah fırça, gah qələm aldı.
Önündə düz, dərə ağ-ağ varaqlar
Şirin bir duyğuyla xəyala daldı...

Düzülü kəhrizlər – mürəkkəbqabı,
Kahalı qayalar – qələmdanıdır.
Lal-dinməz dağlardır dözümü, tabı.
Oynayan şimşəksə həyəcanıdır.

Günəşdən almışdır öz ilhamını,
Odlayır könlünü vüsal həsrəti.
Deyir heyran qoya gərək hamını
Bu təzə namənin sözü, söhbəti.

Güneydən başladı ilk misraları,
Hərflər töküldü: novruz, bənövşə,
Sonra da sünbüllər qızılı, sarı...
Bir əmək nəğməsi yazıldı döşə.

Düzlərə lalədən nöqtələr qoydu,
Zirvədən adlayıb quzeyə keçdi.
Xınalı daşların köksünü oydu,
Fırçası al-əlvan rəngləri seçdi.

Bir xalı rəsm etdi: "Yusif-Züleyxa",
Bayılda nəşəylə hər yamac, hər dik.
Qaldıq bu lövhəyə biz baxa-baxa,
Eşqə, sədaqətə alqışlar dedik!

Qələmi külüngdü – bəndləri sökdü,
Mürəkkəbi seltək axdı bağlara,
Pozulmaz naxışlar, incilər tökdü
Buzlu lövhələri o, qıra-qıra.

Mahnı bəstələdi, nota köçürtdü,
Verdi ifasını şeyda bülbülə,
Bir yanda dərdləşən Arazdı, Kürdü,
Bir yanda uğunub gedən şəlalə.

Baharın xəttilə yazıldı təzə
Qışdan düşüb qalan neçə ağ varaq.
Gətirib bəxş etdi bu namə bizə
Neçə bol nemətdən, ağ gündən soraq.

Açıb məktubunu oxuduq, Bahar,
Açıldı qəlbimiz dost töhfəsindən.
Yolunu hələ də çox gözləyən var,
Qoyma onları da intizarda sən!..

İKİ LÖVHƏ

Yolun alt tərəfi pambıq tarlası,
Yolun üst tərəfi gömgöy zəmidir.
Bu il qəribədir payız havası,
Ağlayıb sevinən uşaq kimidir.

Muğana nur töküb qalxanda günəş
Kəpəzdə buludun bağrı sökülür.
Hər şəhli yarpaqda yanır bir atəş,
Açılan qozalar elə bil gülür.

Yolun alt tərəfi al-əlvan olur –
Bəzəyir tarlanı qızlar, gəlinlər.
Önlüklər boşalır, xarallar dolur,
Hünərə baş əyir gedib-gələnlər!

Çox çəkmir Murovda oynayan şimşək.
Günəşə göstərir barmaq hədəsi.
Ələ, üzə düşür damcılar tək-tək,
Artır, böyüdükcə bulud kölgəsi.

Pambıq kollarını budayır yağış,
Heç kəsən deyilmiş on gün, sən demə.
Qalxır yol üstündə ot qarış-qarış,
Buludun döşündən süd əmə-əmə.

Büzüşüb titrəyir yolun alt yanı,
Qız-gəlinsiz qalıb təklikdən bezir.
Zəmisə gizlədir quzu ceyranı,
Alnına qızıldan təzə tel düzür.

Yolun üstü gömgöy, altı ağappaq.
Arası çox olsa onca qarışdır.
Payızın çəkdiyi lövhələrə bax,
Birində bahardır, birində qışdır.

BULAQLARIN MAHNISI

Axar sızıltıyla yol gedə-gedə,
Endikcə, qalxdıqca coşar bulaqlar.
Gəzib bir-birini tapar dərədə,
Sevincdən kükrəyib daşar bulaqlar.

Rəqs edib çırpınar, qarışar selə,
Sığmaz məcrasına, sığmaz sahilə,
Mat qoyar aləmi zənguləsiylə,
Ümman məclisinə qoşar bulaqlara.

Gəlməzdi bir zaman səsi-səmiri,
Yeraltı məhbəsdi məkanı, yeri
Zülmətdən, zəncirdən qopandan bəri
Əbədi mahnıyla yaşar bulaqlar.

TORAĞAYLAR ÇIXIR YOLA

Milyon-milyon ildən bəri
Başında bir ipək daraq,
Milyon-milyon ildən bəri
Bir nəğməni oxuyaraq,
Milyon-milyon ildən bəri
Döyükərək sağa, sola
Torağaylar çıxır yola...

Qırğıdanmı, ya leydənmi
Qorxub yola qanad açır?
Axtardığı yoxsa dənmi
Yol boyunca qaçır, qaçır?..

Yaxın gəlib bizə sarı
Rəqqasətək süzə-süzə
Nazla ötür,
Ayaqları
Yola naxış düzə-düzə.

Ev quşutək qaçan deyil,
İstər qovla, istər kişlə.
Ömr eləyib nəsil-nəsil
Bu adətlə, bu vərdişlə.

Milyon-milyon ildən bəri
Qoşa-qoşa ana-bala
Torağaylar çıxır yola...

Təzə yolsa nə piyada,
Nə də köhnə at yoludur.
Sinəsindən süzüb keçən
Maşınlarla dopdoludur.

Torağaymı qaça bilər,
Torağaymı uça bilər
Qabağından heç onların,
Ley qanadlı maşınların?!

Bir torağay səkə-səkə
Çıxsa yola – heçdir demək.
Dəyib odlu mühərrikə
Düşər kabab tikəsitək...
İlk xislətdə,
İlk adətdə,
İlk niyyətdə
Əsrlərcə qala-qala
Torağaylar nahaq yerə,
Nahaq yerə çıxır yola!..

BALLI QAYA

Uçurumlardan keçə-keçə
Çatıb qarlı zirvələrə,
Ad verərək neçə-neçə
Adsız yerə, sansız yerə,
Saçında bir çəngə bulud,
Qaşlarında sırsıra, sis,
Şiş qayaya üz tutaraq
Aldı soraq
Bir alpinist:
– Adın nədi? Adın nədi?

– Nədi?! Nədi?!
– Adın nədi, a daşları
Xallı qaya? Xallı qaya!
– Ballı qaya! Ballı qaya!
– Qoynundakı sirr nə, de, sən.
Sirr nə, de sən?
– Hər nə desən... Hər nə desən.
– Ballı qaya, balın v-a-aar?
Balın v-a-arr?
– V-a-aar, v-a-a-aar, v-a-a-ar...
Gənc alpinist baxdı-baxdı
Heyran-heyran.
Üst-başına şirə yağdı –
Sarp qayada məskən salan
Arıların vilayəti
Əl çatmayan koğuşlara
Toplamışdı var-dövləti.
– Kimə sirdaş oldun dünən,
Bu gün, qaya, bu gün, qaya?
– Günə, Aya! Günə, Aya!..
– Kimə yığıb saxlamısan
Xəzinəni fəsil-fəsil,
sənə-sənə?
– Sənə, sənə! Sənə, sənə...

DAĞ PAYI

Zəncir olub sarıdı
Yol, təbiət oğlunu,
Çalın-çarpaz bağladı
Ayağını, qolunu.

Məhvinə fərman çıxan
Başı qarlı dağ deyil,
Əfsanəvi qəhrəman
Dayanmışdı elə bil.

Maşın maşın dalınca...
Qurğular işə düşdü;
Mühərrikli baltalar,
Burğular işə düşdü;

Əvvəl, dağın çiçəkli
"Dərisini" soydular,
Sonra məğrur köksünü
Oyum-oyum oydular.

Açdı nəhəng kəlbətin
Ağzını gəcli-gəcli,
Çəkdi sağlam "dişləri",
Çəkdi köklü-köməcli.

Uğultular götürdü
Uzaq, yaxın dağ-daşı.
Kərpic-kərpic doğrayıb
Yüklədilər ağ daşı.

Dağ əridi... daşındı
Maşın-maşın arana
Səpələnib dağıldı
Hər parçası bir yana.

Səpələndi?!
Yox, dağın
Möhtəşəmdir xisləti.
Hamı uca saxladı
Bu payı, bu qisməti.

Kimə düşdü dağ payı
Qalxdı evi-eyvanı,
Uca-uca sarayı.
Kimə düşdü dağ payı
Döndü şirin nəğməyə
Ufultusu, harayı.

Çölə düşsə dağ payı
Bəzər tənha guşəni.
Ələ düşsə dağ payı
Gəzər tənha guşəni,
Mil-Muğanı səs-həmir;

Dağlar daşınır düzə,
Dağlar axır dənizə –
Nə sərvəti tükənir,
Nə ülfəti tükənir.

Şəhər salıb səhrada
İnsan dağa söykənir,
Büsat qurub dəryada
İnsan dağa söykənir!..

ELQOVAN

Payız gircək yal-yamacı
Bəzər qırov, sırsıra.
Sazaq çəkər buz qırmancı
Qaşqabaqlı dağlara.

Üfüqlərin qaşı çatıq,
Göyün qanı qaralar.
Yaşıl çəmən bir gecədə
Xiffətindən saralar.

Yox, ot deyil, çəmən deyil
O sapsarı saralan,
Ulduz-ulduz gül-çiçəkdir,
Ləqəbi də "elqovan".
Nə ətri var, nə də hüsnü
Fərəh verə insana.
Bədəndəki səpki sayaq
Tez yayılar hər yana.

Fəqət onun yanıb-sönən
İşıq kimi "sözü" var.
Boran qoşun çəkməmişdən
Haray-həşir qoparar.

Orda-burda baş qaldırıb
Göründümü bu çiçək,
Bir-birinə dəyər hamı:
"Cəld tərpənək, tez köçək!"

Sarı çiçək – sarı işıq,
Xəbərdarlıq deməkdir!
Yubandınmı, arxan tufan,
Önün qardır, küləkdir.

Fəlakətin qucağından
Qovar eli-obanı.
Ellər sevib əzizləyər
Eli bu cür qovanı...

GÖZƏLLİYƏ SƏYAHƏT

Möhtəşəm görünür qarlı Dəli dağ –
Qartallar qalası, çoban oylağı.
Çiçəkli döşündən qaynayan bulaq
Yayda da dondurur əli-ayağı.

Başına yüz dəfə azı dolandım
İlantək qıvrılan bu yollar ilə.

Sənsiz aylarımı qərinə sandım,
Bəs neçə dözmüşəm indi üç ilə?
Çatıb qulağını atım kişnəyir,
Əzəldən tanışdır bu yerlər ona.

Sərin dağ küləyi üzümə dəyir,
Könül havalanıb gəlir cövlana.

Duman yanağına çəkir yaşmağı,
Baxırsan ismətli bir gəlin kimi;
Uçub hardan gəldin sən axşam çağı,
Qondun bu yerlərə göyərçin kimi?

Əbəs verməyiblər bu adı sana:
Dəli dağ! Dəli dağ! Nə vüqarlısan!
Buludlar göz yaşı tökər qoynuna
Zirvəndə bir şimşək oynayan zaman.

Qürubda qaynayır qara buludlar,
Yolların üstünə çökür qaranlıq.
Havanın rəngindən yağır zəhrimar,
Hiddətli bir yağış başlayır artıq.

Min ləzzət duyuram bu əziyyətdən,
Yağışda çimməyin başqa zövqü var.
Üstümüzə çökən qatı zülmətdən
Kabusa bənzəyir çiçəkli dağlar.

Əbəs verməyiblər bu adı sana:
Dəli dağ! Dəli dağ! Nə havalısan!
Ulduzlar tökülüb yaşıl qoynuna,
Yoxsa çiçəklərdir elə parlayan?

Təpəsi aşağı enirik çaya,
Titrəyir islanmış bədənlərimiz.
Diqqət et indi də ulduza, aya,
Qara buludlardan qalmadı bir iz.

Atəş böçəyitək parlayıb sönür
Sayrışan işıqlar pəncələrdən.
İslanmış canımız alova dönür
İstisu adını çəkdikcə hərdən.

QƏRİB BAHAR

Yamacları qalxa-qalxa
Dağ başına yol almışam.
Ömrüm-günüm burda keçib,
İndi yenə mat qalmışam.

Bilmirəm ki, heç nədəndir
Bu riqqətim, heyranlığım?
Köpüklənən gur çeşmədir,
Baldırğandır solum-sağım.

Bir uşaqlıq həvəsiylə
Qalxıram göy yoxuşları.
Çiçəklər ağ paltarıma
Səpir əlvan naxışları.

Lal qayalar, ağ zirvələr
Baxır mənə qərib-qərib.
Təbəssümlü dağ günəşi
Qollarıma lalə sərib.

Aşağıda qantəpərin
Saçaqları solub gedir,
Meh, qanqalın kəkilini
Bir həmlədə yolub gedir.

Yuxarıda tikanını
Bərkitməyib yer alması,
Aşağıda kirpi təki
Qabarıbdır hər koması.

Yuxarıda gömgöy, yaşıl
Yaxasında uca dağın
Öz köçündən ayrı düşən
Xırman boyda qara baxın.

Yayın qızmar sinəsinə
Qorxa-qorxa o, sığınıb.
Ömrü dönüb damcılara
Düşür bir-bir: tırıp... tırıp...

Beş addımlıq bu torpağa
Hələ indi bahar gəlib,
Beş addımlıq bu torpağa
Bənövşədən nübar gəlib.

Fəqət burda vaxtsız açan
Çiçəklərə salsan nəzər –
Onlar rəngi-ruhu qaçan,
Xiffət çəkən qıza bənzər.

Gördüm yazın çöhrəsində
Boynu bükük qəribliyi.
İniltiyə dönüb gedir
Hər əməli, hər diləyi
Uzaqlardan doğma yurda
Yetişməyən səda kimi.
Yayın sonsuz ümmanında
Bahar qalıb ada kimi.

TƏBİƏTİN QIZ VAXTIDIR

Günəş baxır təbəssümlə –
Duman dönür qızıl tülə,
Buzlu şırran gəlir dilə:
Novruz çatıb yaz vaxtıdır.
Yolda dardan dara düşüb,
Çox tufana, qara düşüb
Bədxahları tora düşüb,
Kef-damağın saz vaxtıdır.


Şimşək çaxır, biz də çaxaq,
Yığıb dərdi qalaq-qalaq
Komasına qoy od vuraq,
Ocaq vaxtı, köz vaxtıdır.

Ara, axtar hər guşəni,
Gəz çəməni, gəz meşəni,
Opüb ayılt bənövşəni,
Təbiətin qız vaxtıdır.

Başqalaşıb üzü dönsə,
Çiçək üstdə qar görünsə,
Hərarəti artsa, sönsə,
İncimə ki, naz vaxtıdır.

Küsmüsənsə barış bu gün,
El-obaya qarış bu gün.
Gözaltınla danış bu gün,
Əhdin-eşqin düz vaxtıdır.
Çərşənbənin son axşamı,
Qoşa yanır tale şamı.
İstəyinə çatsın hamı,
Hər qismətin öz vaxtıdır.

Yazın adı dodağımda,
Səmənisi otağımda.
Mənim ana torpağımda
Büsat vaxtı, saz vaxtıdır.



HEYRƏT ETDİM TƏBİƏTİN ACİZLİYİNƏ

Dəyişirik gəzə-gəzə Azərbaycanı,
Təbiəti yenilməyən gücdür, qüdrətdir.
Bulağını görən kəsin qaynayır qanı,
Qıjıltılı çaylarısa coşan qeyrətdir.

Aşırımlarda sərgi açan min gül, min çiçək
Könüldəki diləklərdir – sayrışır rəng-rəng.
Buludlardan çıxan zirvə vüqara dönür,
Cəsarətə məşəl tutur qartal yuvası.
Yay qarında dəli qəzəb soyuyub sönür,
Dan yerindən şəfəq alır eşqin səması.

Mehribanlıq – dərələrin gülüşündədir,
Düzlük-saflıq – dolaylarda, dağ döşündədir.
Təbiətdən pay götürüb təbiətimiz,
Pak duyğular bəxş eləyib bu torpaq bizə!
Odur salan idraka da naxış-naxış iz,
İşıq səpən qəlbimizə, gözlərimizə.

Yer üzünün belə nadir bir guşəsində
İgidlərin, gözəllərin hesabı yoxdur,
Burda hərə öz işində, öz peşəsində,
Qəm-qüssə az, səadət çox, məhəbbət çoxdur.

Lakin tək-tük insan da var içindən yanar,
İşıq saçmaz ətrafını zülmət alsa da,
Dağda yaşar, özünü də uca dağ sanar
Boyu kömür tayı kimi gödək olsa da.
Tanıyıram birisini, tanıyır çoxu,
Əli qələm tutan gündən, düşüb mərəzə –

Gül-çiçəkli bir məkanda bilməyir yuxu,
Məktub yazıb o, tel vurur gündə mərkəzə.

Məktub yazır sol əliylə, ayaqlarıyla
Gah imzalı (özgə adla!), gah da imzasız.
Qarşılaşır rəqibiylə o bilə-bilə,
Söyüb ara vuranları, edir dil-ağız.

Zəhərini boşaltmasa gedib xəlvəti
Vərdişlidir, bir an aram ola bilməyir,
Qarayaxma nəşəsindən çatan ləzzəti
Təzə beçə balından da ala bilməyir.

Düşünürəm: yaşıl donlu qadir təbiət
Məlhəm qoyub hər yaranı, dərdi itirir,
Addımbaşı göstərir o, möcüzə, hikmət –
Sarp qayalar sinəsində palıd bitirir.

Bəs bu məğrur gözəlliyin, hüsnün əlləri
Niyə qəbə bir xislətə ənçam çəkməyir?
Seyr edirəm bozqırlarda bitən gülləri,
Niyə dağlar hər ürəkdə mərdlik əkməyir?

Bu halətlər müəmmalı göründü mənə –
Heyrət etdim təbiətin acizliyinə...

DİNMƏDİKCƏ

Kobud torba üzərində rəsm edilib: Yesenin,
Damağında qəlyanı...
Sex rəisi! – dedim, – yəqin, ağlın çaşıb ya sənin,
Ya qudurub biləyinə dolamısan dünyanı.

Yoxsa şair şöhrətini çevirməkçin qazanca
Talesiz bir sənətkarı fağır bilib seçmisən,
Pul izinə düşə-düşə öz yolunu azınca
Yeyib arı-namusu da üstündən su içmisən?